**Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**"Maliyyə və audit" kafedrasının**
**müdiri: Ə.Ə.Ələkbərov, i.e.d., prof.**

**15 sentyabr 2025**

**"MALİYYƏ UÇOTU" FƏNNİ ÜZRƏ**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

**I. Fənn haqqında məlumat**

**Fənnin kodu:** *00531*
**Fənnin öyrənilməsinin zəruriliyi:** *məcburi/seçmə*
**Tədris ili:** *2025/2026*
**Tədris semestri:** *yaz, payız*
**Kursun səviyyəsi:** *bakalavr*
**Tədris forması:** *əyani*
**Fakültə:** *"Maliyyə və Mühasibat"*
**Qrup:** ____________
**Tədris yükü:** *60 saat (30/30)*
**Kredit sayı:** *4*

**II. Müəllim haqqında məlumat**

**Fənni tədris edən müəllim:** dos.N.M.Musayeva, dos.K.A.Xudaverdiyeva, dos.A.R.Hacıyeva, b/m.G.Q.Tanrıverdiyeva, b/m.M.M.Məmmədova, b/m.F.M.Mirzəyeva, müəl.D.D.Fərəcova, müəl.U.Z.Məmmədova
**Kafedra:** *"Maliyyə və Mühasibat"*
**E-mail ünvanı:** **Hajiyeva_A@unec.edu.az**
**İş telefonu:** *+99412492 4004*

**III. Fənnin təsviri**

Maliyyə uçotu Peşəkar Mühasiblərin Sertifikatlaşdırma Proqramının Fundamental səviyyəsinə daxil edilmiş fənnlərdən biridir.Fənnin tədrisinin zəruriliyi tələbələrə mövcud normativ-hüquqi bazaya, ümum qəbul olunmuş mühasibat uçotu prinsiplərinə (GAAP-ra) və Beynəlxalq standartlara uyğun maliyyə uçotunun aparılması, maliyyə hesabatının tərtib və təqdim edilməsinin konseptual əsaslarını və praktiki aspektlərini öyrətməklə bağlıdır. Maliyyə uçotu kommersiya təşkilatlarının fəaliyyəti prosesində baş verən əməliyyatlar və hadisələr haqqında məlumatların qeydiyyatı, qiymətləndirilməsi, təsnifatı və ümumiləşdirilməsinin prinsiplərini,qaydalarını və prosedurlarını əhatə edir. Maliyyə uçotu maliyyə informasiyasının formalaşdırılmasının başlanğıc mərhələsidir.Bu mərhələdə ilkin məlumatlar hesabların, ikili yazılışın, müxtəlif səviyyəli registrlərin və müxtəlif qiymətləndirilmə bazalarının tətbiqi yolu ilə maliyyə informasiyasına çevrilir.Sonuncu mərhələdə maliyyə uçotunun informasiyasının müəyyən edilmiş prinsiplərə və qaydalara uyğun ümumiləşdirilməsi əsasında maliyyə hesabatı hazırlanır və istifadəçilərə təqdim edilir. Maliyyə uçotu informasiyasının məzmununa, keyfiyyəti və faydalılığına olan tələblər konverqensiya əsasaında maliyyə hesabatının hazırlanması və təqdim edilməsi üzrə Konseptual sənədlərdə və müvafiq Beynəlxalq Standartlarda təsbit edilir.

**IV. Fənnin məqsədi və vəzifələri**

*Fənnin tədrisinin məqsədi* – hesabat verən təşkilatın maliyyə vəziyyətini, fəaliyyətiunin nəticələrini, onun pul törətmə qabiliyyətini təhlil etmək və qiymətləndirmək üşün zəruri olan informasiyanın formalaıdırılmasının nəzəri, metodoloji və empirik əsaslarını, metodlarını, həmçinin həmin

informasiyadan istifadə etməklə maliyyə hesabatını tərtib və təqdim etmənin qaydalarını tələbələrə öyrətməkdir.

***Fənnin tədrisi qarşısında duran vəzifələr*:**

- Maliyyə uçotunun mahiyyəti, məqsədi və təyinatı haqqında tələbələrdə bilik formalaşdırmaq;
- Maliyyə uçotu və hesabatı sistemində isifadə edilən terminlərin və anlayışların sintaksisini, semantikası və praqmatikasını başa düşməkdə və interpretasiya etməkdə tələbələrə köməklik göstərmək;
- Əməliyyatlar və hadisələr barədə informasiya formalaşdırmanın metodoloji ünsürləri olan ilkin qeydiyyat, qiymətləndirmə, hesablar, ikili yazılış üsullarının mahiyyətini və tətbiqi qaydalarını mənimsəməkdə tələbələrə kömək etmək;
- İlkin məlumatların müxtəlif səviyyəli və təyinatlı registrlərdə qeydiyyatı və qruplaşdırılması nəticəsində alınan informasiyadan istifadə etməklə sınaq balansının hazırlanması və düzəlişlərin aparılması qaydalarını öyrətmək;
- Maliyyə uçotunun məlumatları və informasiyası bazasında Konseptual əsasların və müvafiq Beynəlxalq standartların təsbitlərinə uyğun maliyyə hesabatının hazırlanması və təqdim edilməsi qaydalarını tələbələrə izah etmək və öyrətmək.

**V. Fənnin tədrisi nəticəsində tələbələr aşağıdakıları:**

**Bilməlidirlər:**

- Maliyyə uçotunun məqsədini, funksiyalarını, onun qarşısında qoyulan tələbləri;
- Maliyyə uçotunun aparılması və maliyyə hesabatının hazırlanmasının konseptual prinsiplərini və normativ-hüquqi bazasını;
- Maliyyə uçotunun aparılması ilə maliyyə hesabatının tərtib edilməsi arasındakı nəzəri-metodoloji əlaqəvə asılılığı;
- Maliyyə uçotu və hesabatı sistemində tətbiq olunan terminlərin və anlayışların mahiyyətini, praqmatik əhəmiyyətini;
- Maliyyə uçotu və hesabatı çərçivəsində formalaşdırılan informasiyanın keyfiyyət atributlarını;
- Baş vermiş əməliyyatlara və hadisələrə rəğmən sənədəşdirmənin, hesabların və ikili yazılışın mahiyyətini və tətbiqi qaydalarını;
- Maliyyə uçotu və hesabatı elementləri və obyektlərinin Konseptual əsaslar və müvafiq Beynəlxalq standartlarla təsbit olunmuş tanınma kriteriyalarını, təsnifatını, ilkin və sonrakı qiymətləndirilmə qaydalarını və uçot modellərini;
- Kommersiya əməliyyatları və hadisələri barədə ilkin sənədlərdə əks etdirilmiş və daha sonra qeydiyyat registrlərində işlənilmiş və ümumiləşdirilmiş məlumatlar/informasiya əsasaında müvafiq standartların tələblərinə uyğun maliyyə hesabatının hazırlanması və təqdim edilməsi qaydalarını.

**Bacarmalıdırlar**:

- Maliyyə uçotunun aparılmasının konseptual əsaslarını və tənzimlənməsinin qanunvericilik bazası ilə müəyyən edilmiş qaydalatrını tətbiq etməyi;
- Əməliyyatların və hadisələrin ilkin sənədlərlə rəsmiyyətə salınmasını və qiymətləndirilməsini, sənədlərdə olan məlumatların ikili yazılış üsulu ilə registrlərdə (hesablarda) qruplaşdırılması və ümumiləşdirilməsini;
- Hesabat dövründə baş vermiş və ikili yazılış metodu ilə əks etdirilmiş biznes əməliyyatların maliyyə bərabərliyinə (A=K+Ö və A=K+Ö+G-X) təsirini izah etməyi və qiymətləndirməyi;
- Hesabat dövründə uçot registrlərində (hesablarında) ümumiləşdirilmiş informasiyanın bazasında sınaq balanslarının tərtib edilməsini və onlarda korrektələrin aparılmasını;
- Konseptual əsasların və müvafiq Beynəlxalq standartların təsbitlərinə uyğun olaraq hesabat verən təşkilatın maliyyə hesabatını tərtib və təqdim edilmə qaydalarını tətbiq etməyi;
- Maliyyə hesabatının informasiyası bazasında maliyyə əmsallarını hesablamağı və interpretasiya etməyi.

## VI. Fənnin mühazirə mövzuları

| Sıra | Mövzuların adları | Mühazirə dərsləri | Seminar dərsləri |
|---|---|---|---|
| 1 | Maliyyə uçotunun mahiyyəti, təyinatı, tənzimlənməsinin qanunvericilik bazası və konseptual əsasları | 2 | 2 |
| 2 | Maliyyə uçotu və hesabatının elementləri, onların tanınması və qiymətləndirilmə bazası | 2 | 2 |
| 3 | Maliyyə uçotu informasiyasının formalaşdırılması prinsipləri və keyfiyyət xarakteristikaları | 2 | 2 |
| 4 | Hesablar, ikili yazılış sistemi, onların təyinatı və tətbiqi qaydaları | 2 | 2 |
| 5 | Biznes əməliyyatları və hadisələri üzrə məlumatların sənədləşdirilməsi, qeydiyyatı və ümumiləşdirilməsi sistemi | 2 | 2 |
| 6 | Ehtiyatların uçotu | 2 | 2 |
| 7 | Uzunmüddətli maddi aktivlərin uçotu | 2 | 2 |
| 8 | Qeyri-maddi aktivlərin uçotu | 2 | 2 |
| 9 | Amortizasiya | 2 | 2 |
| 10 | Gəlirlərin və xərclərin tanınması və uçotu | 2 | 2 |
| 11 | Debitor və kreditorlarla hesablaşmaların uçotu | 2 | 2 |
| 12 | Öhdəliklərin tanınması, qiymətləndirilməsi və uçotu | 2 | 2 |
| 13 | Kapitalın uçotu və saxlanılması konsepsiyaları | 2 | 2 |
| 14 | Maliyyə hesabatı, onun hazırlanması və təqdim edilməsi qaydaları | 4 | 4 |
| | CƏMİ | 30 | 30 |

## VII. Prerekvizitlər

Maliyyə hesabatlılığı

## VIII. Fənnin tədris metodologiyası

Fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin keçirilməsi, komanda ya da kiçik qruplar şəklində praktiki maliyyə qərarlarınınqəbulu və icrası üzrə xüsusi misallar, nümunələr (keys-stadilər) nəzərdən keçiriləcək, onların birgə təhlili aparılacaq,açıq və qapalı test tapşırıqları öyrəniləcək, testlərin cavabları müzakirə olunacaqvə qiymətləndiriləcəkdir.

## IX. Fənnin tədrisində istifadə olunan ədəbiyyatlar

### ƏDƏBİYYAT


1. ”Mühasibat uçotu haqqında” AR Qanunu,Bakı,2004;
2. “Mühasibat uçotu haqqında” AR Qanununda dəyişikliklər edilməsi barədə”” AR Qanunu, Bakı,2018;
3. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mühasibat uçotunun aparılması Qydaları-AR Maliyyə Nazirliyi tərəfindən 30 yanvar 2017 –ci idə təsdiq edilmişdir: *http://85.132.71.30/framework/34909;framework /31986*
4. Mühasibat uçotu suyektləri üçün Hesablar Planı – AR Maliyyə Nazirliyi tərəfindən 30 yanvar 2017 –ci idə təsdiq edilmişdir: *http://85.132.71.30/framework/34909*;
5. Maliyyə Hesabatlarının Beynəlalq Standartlarına, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarına və İctimai Sektor üşün Mühasibat Uçotunun Beynəlalq Standartlarına

uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması qaydası - AR Maliyyə Nazirliyi tərəfindən 18 yanvar 2016 –cı idə təsdiq edilmişdir: *e-qanun.az / framework /31986* ;
6. Maliyyə hesabatının təqdim edilməsinin Konseptual əsasları- MHBS Şurası tərəfindən 2018 –ci ildə dərc edilmişdir.: *https: //www.minfin.ru/ru/ document/;*
7. Maliyyə Hesabatının Beynəlxalq Standartları:*http:// maliyye. gov.az/static/141/ maliyye – hesabatlarinin-beynelxalq-standartlari*;
8. Maliyə uçotu:Fundamental səviyyə -2-ci fənn.Dərs vəsaiti,Bakı-2013, 744 səh.;
9. Səbzəliyev S.Maliyyə hesabatı.Dərs vəsaiti,Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2018. – 312 səh.;
10. V.Quliyev, R.Fətullayev, A.Kərimov Beynəlxalq uçot və hesabata giriş (GAAP və İFRS əsasında). Bakı, 2012 -279 səh.;
11. Учебное пособие по АССА ДипИФР ©2020 PwC, 496 стр.;
12. Международные стандарты финансовой отчётности: базовый курс : учеб. пособие / авт.-сост. Н. Н. Илышева, Е. Р. Синянская, О. Е. Решетникова, О. В. Савостина. — Екатеринбург : Изд-во Урал. ун-та, 2017. — 236 с.;
13. Бухгалтерский учет: Учебник для бакалавров / Ю.А. Бабаев, А.М. Петров, Л.А. Мельникова; Под ред. Ю.А. Бабаев. - М.: Проспект, 2018. - 432 с.;
14. Международные стандарты финансовой отчетности: *https://normativ.kontur.ru/document?moduleId=41&documentId=248939*;
15. Кондраков, Н.П. Бухгалтерский учет: / - М.: ИНФРА-М, 2018. - 512 с.;
16. Bpp Learning Media. (2020). Fia Foundations of Financial Accounting Ffa (acca F3). BPP Learning Media.

## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, videomateriallar və audiosəslər, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində https://www.youtube.com/watch?v=xqBCGx5Zpws&list=PLu6AvRirjWTbQg5J1E_0hLOHCQgSTA3tU&index= yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas hədəfləri | Əsas dərslik və ədəbiyyat |
|---|---|---|---|
| 1 | Maliyyə uçotunun mahiyyəti, təyinatı, tənzimlənməsinin qanunvericilik bazası və konseptual əsasları | 1.1.Maliyyə hesabatlarının hazırlanması, maliyyə məlumatlarının qeydiyyatı, məqsədi və təyinatı; | Ədəb. 6:Fəsil 1; səh 6-9<br>Ədəb.7: (IAS)1; |
| | | 1.2.Maliyyə uçotu ilə maliyyə hesabatlarının qarşılıqlı əlaqəsi və asılılığı; | Ədəb.9:Fəsil 1. səh 10-30<br>Ədəb.10: səh. 3-59; |
| | | 1.3.Maliyyə uçotu və hesabatı subyektlərinin növləri; | Ədəb. 11: Fəsil 2; səh. 20-30 |
| | | 1.4.Maliyyə uçotunun dövlət tənzimlənməsinin normativ – hüquqi bazası; | Ədəb. 12: səh.11-26; |
| | | 1.1. Maliyyə uçotunun konseptual əsasları. | Ədəb. 14: səh.5-15 |
| 2 | **Maliyyə uçotu və hesabatının elementləri, onların** | 2.1. Maliyyə uçotu və hesabatı elementləri haqqında anlayış, onların tərifi; | Ədəb 6: Fəsil 4. səh.17-26 |
| | | 2.2. Maliyyə vəziyyəti haqqında hesabatın elementləri; | Ədəb 6: Fəsil 4. səh.17-26 |

| | | | |
|---|---|---|---|
| | **tanınması,və qiymətləndirilmə bazası** | 2.3. Fəaliyyətin maliyyə nəticələrinə aid olan elementlər; | Ədəb 6: Fəsil 4. səh.17-26 |
| | | 2.4.Elementlərin tanınması anlayışı, tanınmanın kriteriyaları və tanınmanın dayandırılması; | Ədəb 6: Fəsil 4. səh.17-26 |
| | | 2.5.Qiymətləndirilmə bazaları; | Ədəb. 14: Fəsil 2.İAS1 |
| | | 2.6.Cari dəyər əsasında qiymətləndirimənin bazaları. | Ədəb. 14: Fəsil 2.İAS1 |
| 3 | **Maliyyə uçotu informasiyasının formalaşdırılması prinsipləri və keyfiyyət xarakteristikaları** | 3.1.Maliyyə uçotu-hesabatı prinsipləri haqqı ümumi anlayış; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 3.2.İnformasiya formalaşdırmanın prinsipləri; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 3.3. Faydalı maliyyə informasiyasının keyfi xarakteristikaları; | Ədəb. 14: Fəsil 2.İAS1 |
| | | 3.4.Əsas keyfiyyət xarakteristikaları, keyfiyyət xarakteristikalarının tətbiqi; | Ədəb. 14: Fəsil 2.İAS1 |
| | | 3.5.İnformasiyanın faydalılığını artıran keyfiiyət xarakteristikaları, onların tətbiqi; | Ədəb. 14: Fəsil 2.İAS1 |
| 4 | **Hesablar, ikili yazılış sistemi, onların təyinatı və tətbiqi qaydaları.** | 4.1. İkili qeydiyyatın prinsipləri və uçot sənədlərinin formaları; | Ədəb.10: səh.93-102 |
| | | 4.2. Mühasibat hesabları haqqında anlayış, onların təyinatı və quruluşu; | Ədəb.10: səh.93-102 |
| | | 4.2.Hesabların təsnifatı; sintetik və analitik hesablar; | Ədəb 9:Bölmə A., Fəsil-A3.; Ədəb.10; |
| | | 4.4. Hesablar sistemi, ilkin qeydiyyat kitabları, jurnallar və cədvəllər; | Ədəb. 10: səh.93-102 |
| | | 4.5.Müxtəlif tipli əməliyyatların ikili yazılış üsulu ilə qeydiyyatı, hesablar ilə maliyyə bərabərliyi arasında əlaqə; | Ədəb. 10: səh.93-102 |
| | | 4.6. Sınaq balansının hazırlanması. | Ədəb.10: səh.112-115 |
| 5 | **Biznes əməliyyatları və hadisələri üzrə məlumatların sənədləşdirilməsi, qeydiyyatı və ümumiləşdirilməsi sistemi** | 5.1.Biznes əməliyyatları haqqında anlayış, onların növləri; | Ədəb.5: səh 5-25 |
| | | 5.2.Əməliyyatların və hadisələrin sənədləşdirilməsi, sənədlərin növləri; | Ədəb.5: səh 5-25 |
| | | 5.3.Qeydiyyat registrləri, onların funksiyaları və təsnifatı; | Ədəb 9: səh.100-130 |
| | | 5.4.Əməliyyatların ilkin və icmal registrlərdə qeydiyyatı və ümumiləşdirilməsi qaydaları; | Ədəb.10: səh 103-115 |
| | | 5.5.Uçot qeydlərində səhvlərin düzəldilməsi üsulları; | Ədəb.10: səh 103-115 |
| | | 5.6.Düzəliş qeydləri, onların mahiyyəti və növləri; | Ədəb.10: səh 103-115 |
| | | 5.7. Maliyyə hesabatlarının tərtib olunması qaydası. | Ədəb.10: səh 103-115 |

| | | | |
|---|---|---|---|
| **6** | **Ehtiyatların uçotu** | 6.1. Ehtiyatlar, mahiyyəti, təsnifatı və tanınması; | Ədəb. 7: (İAS) 2, (İFRS) 5; |
| | | 6.2. Ehtiyatların qiymətləndirilməsi; | Ədəb. 7: (İAS) 2, (İFRS) 5; |
| | | 6.3. Ehtiyatların əldə edilməsinə məsrəflər, onların uçotu; | Ədəb. 7: (İAS) 2, (İFRS) 5; |
| | | 6.4. Ehtiyatların emalına məsrəflər, onların uçotu; | Ədəb.14: səh.155-181. |
| | | 6.5. Ehtiyatların maya dəyərinin hesablanması metodları; | Ədəb.14: səh.155-181. |
| | | 6.6. Ehtiyatların istifadəsinin və sair xaricolmalarının uçotu. | Ədəb.14: səh.155-181. |
| **7** | **Uzunmüddətli maddi aktivlərin uçotu** | 7.1.Uzunmüddətli maddi aktivlərin tərifləri və təsnifatı; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 7.2.Uzunmüddətli maddi aktivlərin tanınması və ilkin qiymətləndirilməsi; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 7.3.Uzunmüddətli maddi aktivlərin əldə edilməsi (yaradılması) ilə əlaqədar kapitallaşdırılan, kapitallaşdırılmayan və sonrakı məsrəflərin uçotu; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 7.4. Mübadilə, dövlət subsidiyaları, icarə müqaviləsi və sair yolla əldə edilən uzunmüddətli aktivlərin qiymətləndirilməsi və uçotu; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 7.5.İlkin tanınmadan sonra qiymətləndirilmə və uçot modelləri: maya dəyəri ilə (tarixi dəyərlə) uçot modeli və yenidənqiymətləndirilmiş dəyərlə uçot modeli; | Ədəb. 7: MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 7.6.Uzunmüddətli maddi aktivlərin tanınmasının dayandırılması və nəticələrinin uçotu | Ədəb.10: səh140-159 |
| **8** | **Qeyri maddi aktivlərin uçotu** | 8.1. Qeyri-maddi aktivlərin mahiyyəti, identifikasiya edilməsi və təsnifatı; | Ədəb. 7: (İAS) 38 |
| | | 8.2. Qeyri-maddi aktivlərin tanınması və ilkin qiymətləndirilməsi; | Ədəb. 7: (İAS) 38 |
| | | 8.3. Qeyri- maddi aktivlərin əldə edilməsi, yaradlıması ilə əlaqədar məsrəflərlərin kapitallaşdırılması və uçotu; | Ədəb.14: səh.135-146. |

| | | | |
|---|---|---|---|
| | | 8.4. Mübadilə, dövlət subsidiyaları, icarə müqaviləsi və sair yolla əldə edilən qeyri-maddi aktivlərin qiymətləndirilməsi və uçotu; | Ədəb. 7: (İAS) 38 |
| | | 8.5.İlkin tanınmadan sonra qiymətləndirilmə və uçot modelləri; | Ədəb. 7: (İAS) 38 |
| | | 8.6.Qeyri-maddi maddi aktivlərin amortizasiyası, onun uçotu; | Ədəb.14: səh.135-146. |
| | | 8.7.Qeyri-maddi maddi aktivlərin tanınmasının dayandırılmasının uçotu. | Ədəb.14: səh.135-146. |
| **9** | **Amortizasiya** | 9.1.Uzunmüddətli aktivlərin amortizasiyanın məqsədi; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 9.2.Uzunmüddətli maddi aktivlərin amortizasiyası, amortizasiya dövrünün və amortizasiya olunan dəyərin müəyyən edilməsi; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 9.3.Uzunmüddətli maddi aktivlərə amortizasiyanın hesablanılması metodları; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 9.4.Əlavə amortizasiyanın yenidən qiymətləndirilmiş ehtiyat və bölüşdürülməmiş mənfəət arasında paylaşdırılmasını özündə əks etdirməklə yenidənqiymətləndirilmiş aktivlər üzrə amortizasiya; | Ədəb. 7:MHBS (İAS) 16 MHBS (İAS) 40 MHBS (İAS) MHBS (İFRS) 6 |
| | | 9.5.Uzunmüddətli aktivin qiymətləndirilmiş istismar müddəti və ya qalıq dəyəri dəyişdirildikdə amortizasiya məbləğinə edilmiş düzəlişlər; | Ədəb.10: səh. 140-159 |
| | | 9.6. Amortizasiya məbləğinin mənfəət və ya zərər haqqında hesabatda və maliyyə vəziyyəti haqqında hesabatda qeyd olunması | Ədəb.10: səh. 140-159 |
| **10** | **Gəlirlərin və xərclərin tanınması və uçotu** | 10.1. Gəlirlər və xərclər haqqında anlayış, onların tanınması qaydaları; | Ədəb. 7: (İAS) 1; (İFRS)15 |
| | | 10.2. Satışdan gəlirlərin identifikasıyası, qiymətləndirilməsi və uçotu; | Ədəb.11: səh.197-233: |
| | | 10.3. Satışın maya dəyərinin silinməsinin uçotu; | Ədəb.11: səh.197-233: |
| | | 10.4. Satışdan maliyyə nəticələrinin uçotu; | Ədəb.11: səh.197-233: |
| | | 10.5. Sair əməliyyat fəaliyyətindən yaranan gəlirlərin və xərclərin uçotu; | Ədəb.11: səh.197-233: |
| | | 10.6. Gələcək dövrün gəlirlərinin uçotu | Ədəb.11: səh.197-233: |
| | | 10.7. Gələcək dövrün xərclərinin uçotu | Ədəb.14: səh.271-337 |

| | | | |
|---|---|---|---|
| **11** | **Debitor və kreditorlarla hesablaşmaların uçotu** | 11.1.Pul vəsaitləri, onların ekvivalentlərinin mövcudluğu və hərəkəti ilə bağlı əməliyyatların uçotu; | Ədəb. 7: (İAS) 7, (İFRS 16); |
| | | 11.2. Debitor borclarının uçotu; | Ədəb. 7: (İAS) 7, (İFRS 16); |
| | | 11.3. İcarə üzrə debitor borclarının uçotu; | Ədəb. 7: (İAS) 7, (İFRS 16); |
| | | 11.4. Müxtəlif mübadilə məzənnələrindən istifadə etməklə xarici valyuta ilə ifadə olunmuş monetar aktivlərin funksional valyutaya yenidən hesablanmasının uçotu | Ədəb11: səh.200-220 |
| | | 11.5. Kreditor borclarının uçotu; | Ədəb11: səh.200-220 |
| **12** | **Öhdəliklərin tanınması, qiymətləndirilməsi və uçotu** | 12.1. Öhdəliklər, mahiyyəti və tanınma kriteriyaları; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 12.2. Öhdəliklərin qiymətləndirilməsi; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 12.3. Hüquqi öhdəliklərlə bağlı əməliyyatların uçotu; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 12.4. Qanunvericilikdən irəli gəlməyən (konstruktiv) öhdəliklər, onların uçotu; | Ədəb.8: Fəsil 300-340 |
| | | 12.5. Qiymətləndirilmiş öhdəliklər, onların uçotunun xüsusiyyətlətri. | Ədəb.14: səh.337-343; |
| **13** | **Kapitalın uçotu və saxlanılması konsepsiyaları** | 13.1. Kapitalın müəyyən olunması, onun digər elementlərlə qarşılıqlı əlaqəsi; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 13.2. Kapitalın qiymətləndirilməsi, tərkibi və təsnifatı; | Ədəb. 6: Fəsil 3. səh.10-17 |
| | | 13.3. Kapitalın yaranması, artması və azalması üzrı əməliyyatların uçotda əks etdirilməsi qaydaları; | Ədəb.14: səh.219-240; |
| | | 13.4.Kapitalın saxlanılmasının maliyyə konsepsiyası və fiziki konsepsiyası, onların interpretasiyası. | Ədəb.14: səh.219-240; |
| **14** | **Maliyyə hesabatı, onun hazırlanması və təqdim edilməsi qaydaları** | 14.1.Maliyyə hesabatının məqsədi və təyinatı; | Ədəb. 7:(İFRS ) 1; |
| | | 14.2.Aralıq, Konsolidə olunan və Ayrıca maliyyə hesabatları haqqında ümumi anlayış; | Ədəb. 7:(İFRS ) 1; |
| | | 14.3.Maliyyə hesabatının tam komplekti; | Ədəb. 7:(İFRS )15; |
| | | 14.4.Maliyyə hesabatının hazırlanması və təqdim edilməsi mərhələləri; | Ədəb 10:səh.289-339 |
| | | 14.5.Maliyyə hesabatının informasiyası əsasında maliyyə əmsallarının hesablanması və təhlili | Ədəb.14: səh.524-538; |
| | **Yekun imtahan** | | |

**XV. Dərsə davamiyyət**

Tələbərin dərslərin ən azı 75 faizində iştirak etməlidirlər. Bundan az dərslərdə olan tələbələr imtahana buraxılmırlar.

**XVI. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır. Balların bölgüsü aşağıdakı kimidir:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Mühazirə dərslərində iştirak fəallığına görə | | |
| Seminar dərslərindəki cavablar və iştirak fəallığına görə | 20 | 20% |
| Aralıq imtahanı | 30 | 30% |
| Final imtahanı | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə tələbənin bilik və bacarıqlarının attestasiyası bütünlüklə fənn üzrə 75 (yetmiş beş) sual üzərindən (hər mövzu üzrə 5 sual, keys və ya tapşırıq olmaqla) qiymətləndirilərək aparılır.

**XVI. Yekun qiymətləndirmə**

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

Fənn üzrə semestr ərzində (imtahanaqədər və imtahanda) tələbənin topladığıbalın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal- “qənaətbəxş” – **E**
61-70 bal- “kafi” – **D**
71-80 bal- “yaxşı” – **C**
81-90 bal- “çoxyaxşı” – **B**
91-100 bal- “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Fənnin tədris materiallarının hazırlanması zamanı istifadə olunan mənbələr:**

Sillabusun məzmunu və strukturu ilə bağlı təklif olunan bu sənədin hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunmuşdur:


1. **The Londom School of Economics (LSE)**
2. http://www.lse.ac.uk/resources/calendar/courseGuides/MG/2018_MG411.htm?from_serp=1
3. **Harvard Business School**
4. https://www.hbs.edu/about/Pages/default.aspx
5. **Stanford University**
6. https://teachingcommons.stanford.edu/resources/course-preparation-resources/creating-syllabus
7. **Yale University**

8. http://www.econ.yale.edu/~pah29/409web/syllabus.htm
**9. University of Toronto**
10. https://teaching.utoronto.ca/teaching-support/course-design/developing-a-syllabus/
**11. University of Washington**
12. http://www.washington.edu/teaching/teaching-resources/preparing-to-teach/designing-your-course-and-syllabus/#Syllabus
**13. New York University: Leonard N. Stern School of Business**
14. http://w4.stern.nyu.edu/economics/docs/Syllabi/Sp16/Dubra/Dubra_FirmsMarkets_Spring2016.pdf
**15. Rochester Institute of Technology**
16. https://www.rit.edu/academicaffairs/tls/course-design/syllabus-design/developing-your-syllabus
**17. Washington University in St/Louis**
18. https://teachingcenter.wustl.edu/resources/course-design/syllabus-template/
**19. İndiana University**
20. https://citl.indiana.edu/teaching-resources/course-design/syllabus-construction/
**21. The Chronicle of Higher Education**
22. https://www.chronicle.com/interactives/advice-syllabus#components
**23. Ali təhsil müəllimləri üçün yardımçı xüsusi saytlar:**
24. https://www.owlteacher.com/syllabus.html
**25.** https://study.com/academy/lesson/esl-high-school-syllabus-example.html